

## İlham Qazaxlı - 50

# ŞAİR QORLANMAĞINDA OLSUN...

Düşüncəmizdə hər kəsin yüz illik ömür payı haqqımız kimi yaşayır. Bir vaxt böyük Osman Sərvəlli də deyir ki, hər kim yüz il yaşamasa, günah onun özündədir. Əgər ömür payını yüz ildən düşünsək, demək, 50 il ömrün ekvator xəttidir.

İlham Qazaxlının 50 illik ömür payını bayram ovqatı ilə yaşamağına yeddi ay qalır. Bəlkə hələ bir az da kəmdir yeddi aydan.

Kimdir İlham Qazaxlı? Azərbaycan ədəbi mühitinin yaxşı tanıdığı cavan şairlərdən biri. Sözü keçərli şairlərimizin, söz-sənət adamlarının birmənalı deyə bilərik ki, hamısının dostu. "Hamısının" sözü gərək kimsəyə qəribə gəlməsin. Çünki İlham hər adamın öz dilini yaxşı bilir. Necə ki, həyatın dilini bilir.

Poeziyası mövzu baxımından çox rəngarəngdir. Vətən sevdalı şeirləri, sevgi ovqatı üstündə köklənmiş lirik nəğmələri, hətta həyatın xoşagəlməz rənglərinə etiraz motivli kinayə dolu poetik əsərləri... Bütün bunlar göstərir ki, İlham Qazaxlı çoxdan ədəbiyyat sarayının içindədir.

O, 1973-cü ilin may ayının 13-ündə Qazax rayonunun Dağkəsəmən kəndində anadan olub. BDU-nun Tətbiqi Riyaziyyat və informatika fakültəsində ali təhsil alıb.

İlham şeirlərinin ölçü-biçisinə riyazi dəqiqliklə əməl edir. Doğulub-böyüdüyü mühitin poetik ənənələrini, xüsusilə xalq-aşıq şeirinə bağlı ovqatını poeziyasında sədaqətlə yaşadır.

İki kitabı çap olunub: "Qəlbimin duası" (2018), "Sevgisiz yaşamaq bir əfsanədir" (2022). Bu kitablarında İlham özünü bir müdrik, dünyanın gəldi-gedərindən baş çıxaran, ağrı-acılarını yaşamağın təhərini, tövrünü bilən bir sənətkar kimi göstərə bilib. Yazılarında nəsihətçilik ruhu var. Ancaq bu nəsihətçilik rəngsiz deyil. Oxuyanın nəzərini özündə çəkib saxlaya bilir. Dadsız deyil, misralar ovqata bir şirinlik gətirir.

İlham insanlığa əmin-amanlıq arzulayır. Onun düşüncəsinə görə əgər eşqə uca mərtəbələr tikilsə, saraylar tikilsə, ürəklərdə də hicran odu insanlığı yandırıb yaxmaz. Əlli yaşlı şair üçün (hərçənd ki, hələ 7 ay var) cəmiyyətin görmək istədiyi, arzuladığı hansı tələblər var?

Şairin könlünün odu, qəlbinin hərarəti onun yazısında, sözündə görünməlidir. İlhamın şeirlərindəki hərarət sazdan qalxan işıq şüaları kimi oxucunun varlığına hopur.

Əlli yaşlı şair gərək təbiəti etibarı ilə xeyirxah olsun. Odu sönənə qəlbinin ocağından qor versin. İlham bu gün təkcə sənəti ilə yox, həm də bir insan kimi cəmiyyət üçün qorlanan şairdir.

Əlbəttə, İlham xoşbəxt şairdir. Həyatının ən gözəl çağlarında sözə-sənətə Azərbaycanın istiqlalı ilə birgə gəlib. Hələ ki, İlham varlığında yatan kitabları, mənaları ilə laylanan misraları sözə gətirməkdədir və yaradıcılığının qaynar dövrünü yaşayır.

Şair qorlanmağında olsun, od istəyən çoxdur.

*Əli Rza Xələfli*
*25.10.2022*

Kredo .- 2022.- 26 oktyabr.- S.1.